

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 31 may 2025-ci il №38 (2947) https://mod.gov.az Qiymәti 30 qəpik


## Raket və Artilleriya Qoşunlarının reaktiv sistemli bölməsinin təlimi keçirilib



Cari ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunun Raket və Artilleriya Qoşunlarının "Smerç" yaylım atəşli reaktiv sistemli (YARS) bölməsinin döyüş atışlı taktiki təlimi keçirilib.

Təlimin planına əsasən, "Həyəcan" siqnalı ilə qaldırılan reaktiv artilleriya bölməsi daimi dislokasiya məntəqəsini tərk edərək cəmləşmə rayonunda yerləşib, döyüş texnikaları döyüş tətbiqinə hazırlanıb. "Smerç" YARS bölməsi start mövqeyinə çıxarılaraq atış tapşırıqlarını uğurla icra edib.

Müdafiə Nazirliyi xəbər verir ki, keçirilən döyüş atışlı taktiki təlimin əsas məqsədi bölmələrin şəxsi heyətinin döyüş qabiliyyətini artırmaq və hərbi qulluqçuların bilik və bacarıqlarını müasir döyüşün tələblərinə uyğun təkmilləşdirməkdən ibarətdir.

## Prezident Ərdoğan: Azərbaycanın Müstəqillik Gününü Laçında böyük qürurla qeyd etdik

Dünən Qarabağda idik. Azərbaycanın 28 May - Müstəqillik Gününü Laçında böyük qürurla qeyd etdik. Prezident İlham qardaşım və Pakistanın Baş naziri Şahbaz qardaşımla həmrəyliyimizi bir daha bütün dünyaya nümayiş etdirdik. İndi də başqa bir qürur günümüz, tariximizin qızıl səhifələrindən birini yenə də böyük çoşqu ilə salamlayırıq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulun fəthinin 572-ci ildönümü münasibətilə şəhərdə keçirilən bayram tədbirində çıxışı zamanı deyib.

"29 may 1453-cü ildə taktika və strategiya dahisi, qalib sərkərdə, inanmış və məqsədə hədəflənmiş bir ordu ilə birlikdə İstanbulun fəthini gerçəkləşdirdi. 53 gün davam edən mühasirə, hələ 21 yaşı olan Fatehin rəhbərliyi ilə göz qamaşdıran böyük bir zəfərlə nəticələndi. İstanbulun fəthi hər şeydən əvvəl elmin, qətiyyətin və inamın qələbəsidir", - deyə Türkiyə Prezidenti bildirib.

## Dəmir iradə, polad bədən



Hərbi xidmət yalnız silah tutmaq və sərhədləri qorumaqdan ibarət deyil. Güclü ordunun əsas xüsusiyyətlərindən biri də şəxsi heyətin fiziki cəhətdən sağlam və güclü olmasıdır. Buna görə də yuxarı komandanlıq şəxsi heyətin fiziki hazırlığını daim diqqət mərkəzində saxlayır. Bu istiqamətdə tədbirlər sistemli şəkildə həyata keçirilir. Hərbi qulluqçular fiziki hazırlıqlarını günün nizam qaydalarına uyğun olaraq idman saatlarında möhkəmləndirirlər. Bu da əsgərlərin sağlam, iradəli və dözümlü olmalarını təmin edir.

(Ardı 6-cı səhifədə)

## “Laçındakı Zirvə görüşü dövlətimizin tarixi uğurudur”

Laçındakı Zirvə görüşü dövlətimizin tarixi uğuru, Azərbaycan-Türkiyə-Pakistan dostluğunun təntənəsidir.

Bunu AZƏRTAC-a açıqlamasında Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri polkovnik Cəlil Xəlilov deyib.

Polkovnik qeyd edib ki, Laçında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə Zirvə görüşünün keçirilməsi mühüm mətləblərdən xəbər verir: Laçında üç qardaş dövlətin liderlərinin iştirakı ilə Zirvə görüşünün keçirilməsi sadəcə Azərbaycan üçün deyil, həm də Türkiyə və Pakistan üçün olduqca mühüm hadisədir. Bu, hər şeydən öncə hər üç dövlətin bütün dünyaya birlik, həmrəylik mesajıdır. Bu Zirvə görüşü bir daha təsdiq etdi ki, Azərbaycan, Türkiyə və Pakistan qardaşlığı əzəli və əbədidir. Zirvə görüşündə liderlərin verdiyi mesajlar, səsləndirdiyi bəyanatlar da bir daha bunu sübut etdi. Zirvə görüşünün Laçında - erməni işğalından azad edilən tarixi torpağımızda keçirilməsi də olduqca böyük məna kəsb edirdi. Azərbaycan Laçındakı bu möhtəşəm tədbirlə, hər şeydən əvvəl, işğaldan azad edilmiş ərazilərimizdə qısa zaman ərzində həyata keçirdiyi böyük abadlıq-quruculuq işlərini bütün dünyaya nümayiş etdirdi.

"Laçında gerçəkləşən Zirvə görüşü, eyni zamanda, beynəlxalq ictimaiyyətə, qlobal güclərə, Ermənistan və onun himayədarlarına bu torpaqların hüquqi-tarixi sahibinin Azərbaycan olduğunu bir daha xatırlatmış oldu. Azərbaycan həm Zirvə görüşü, həm də Laçın Beynəlxalq Hava Limanının açılışı ilə sübut etdi ki, xalqımız, dövlətimiz erməni faşizminin xarabalığa çevirdiyi yurd yerlərini qısa zamanda dirçəltməyə, bu torpaqları yenidən cənnətə çevirməyə qadirdir. Mən Laçında keçirilən bu cür möhtəşəm beynəlxalq tədbirə görə hər bir vətəndaşımızı təbrik edir, Prezidentimizə, dövlətimizə uğurlar arzulayıram. Əminəm ki, biz zaman-zaman işğaldan azad edilən digər torpaqlarımızda da oxşar tədbirlərə şahid olacaq, tarixi Zəfərimizi, tərəqqimizi, mübarizə və inkişaf əzmimizi əks etdirən tədbirlərlə bütün dünyanı heyrətləndirməkdə davam edəcəyik", - deyə Cəlil Xəlilov əlavə edib.

## “Məşğələlərdə öyrəndiklərimiz xidmətimiz zamanı bizə kömək olur”

"N" hərbi hissəsində leytenant Mütəllim Əlirzayevin nəzarəti altında keçirilən sıra hazırlığı məşğələsini izlədik. Məşğələnin üsullarını öyrənən Vətən müdafiəçilərimizin ayaq səsləri bizim də diqqətimizi cəlb etdi. Əsgərlərimizin hərəkətləri düzgün yerinə yetirməsi, nizamlı şəkildə sağa-sola, geriyə dönmələri, kolon şəklində addımlayarkən ayaqlarını eyni anda yerə vurmaları, eləcə də digər sıra elementləri bizdə xoş ovqat yaradırdı.

Leytenant M.Əlirzayevin seçdiyi peşəyə ürəkdən bağlılığı elə məşğələnin gedişatını izlədikcə hiss olunurdu. Mövcud əyani vasitələrdən, tədris imkanlarından yetərincə bəhrələnən zabit məşğələ prosesində əsgərlərə sıra hazırlığının elementlərini hərtərəfli öyrətməyə çalışırdı. Keçirilən məşğələlərdə əsas məqsəd şəxsi heyətə vərdişləri aşılamaq və onlarda ruh yüksəkliyi yaratmaqdır. Zabit söhbət zamanı qeyd etdi ki, hərbi xidmətin ən mühüm və vacib şərtlərindən biri nizam-intizamdır ki, bu da sıradan başlanır. "Hər gün məşğələyə başlamazdan əvvəl hərbi qulluqçularımıza sıranın müqəddəsliyindən danışır, zamanında bu sıralarda Vətən uğrunda canlarından keçən qəhrəman oğullarımızın dayandıqlarını xatırladıram. Sıra hazırlığı məşğələsində şəxsi heyətə silahsız və silahla sıra hərəkətləri və yerişini, əsgəri salamlaşma qaydalarını, sıra baxışının keçirilməsini, hərbi qulluqçuların düzülüşdən qabaq və sırada vəzifə borclarını, sıra hazırlığına olan tələbləri, habelə yerdəyişmə qaydaları öyrədilir. Şahidi olduğunuz bugünkü məşğələmizdə isə əsgəri salamlaşma, rəisə yaxınlaşma, hərəkətdə dönmələr və digər sıra elementlərini öyrədirik. Vətən müdafiəçilərimiz digər hazırlıqlar kimi, sıra hazırlığı məşğələsində də həvəslə iştirak edir, verilən tapşırıqların öhdəsindən layiqincə gəlməyə çalışırlar", - leytenant M.Əlirzayev dedi.



(Ardı 3-cü səhifədə)

## “Anamın bişirdiyi xörəyin tamını burada hiss edirəm”



Şəxsi heyətin sosial-məişət şəraitindən danışarkən müasir avadanlıqlarla təmin olunan və peşəkar aşpazların çalışdığı əsgər yeməkxanalarını mütləq qeyd etməliyik. "N" hərbi hissəsinin yeməkxanasında çalışan aşpazların və digər işçilərin fəaliyyəti ilə yaxından tanış oldum. Yeməkxana müasir tələblərə uyğun tikilib, avadanlıqlarla təmin edilib. Zabit Elşən Hüseynov bildirdi ki, şəxsi heyətin bütün fəaliyyətləri və təminatları kimi qidalanması da ciddi nəzarətdə saxlanılır. Gündə üç dəfə şəxsi heyətin yüksək kalorili yeməklərlə qidalanması təmin edilir. Bişirilən yeməklərin keyfiyyətindən, mətbəxin, zalın təmizliyindən tutmuş hər bir işçinin gördüyü iş diqqətdə saxlanılır.

(Ardı 6-cı səhifədə)

# Hərbi nizamnamələrin yeni layihələri təqdim olunub

*Mayın 30-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam, Qarnizon və Qarovul Xidmətləri, habelə Daxili Xidmət nizamnamələrinin Silahlı Qüvvələrin aidiyyəti qurumlarının məsul vəzifəli şəxslərindən ibarət işçi qrupu tərəfindən hazırlanan yeni layihələri təqdim olunub.*

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirdə müdafiə nazirinin müvafiq əmrinə əsasən, hərbi nizamnamələrin yenilənməsi məqsədilə yaradılan işçi qrupunun fəaliyyəti və təqdim edilən layihələr barədə ətraflı məlumat verilib.



Qeyd olunub ki, müasir dövrün tələblərinə əsasən hazırlanan hərbi nizamnamələrin yeni layihəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrdə aparılan uğurlu islahatlar, tətbiq edilən yeniliklər və milli-mənəvi dəyərlərimiz nəzərə alınıb.

Tədbirdə çıxış edən müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi intizamın daha da möhkəmləndirilməsinə, nümunəvi hərbi xidmət edən hərbi qulluqçuların mükafatlandırılmasına dair tövsiyələr verib və aidiyyəti üzrə vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub.

# Pakistanda keçirilən kursda iştirak edən hərbi qulluqçularımız Vətənə qayıdıblar

*Pakistan İslam Respublikasında Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) bir qrup ixtisaslı mütəxəssislərinin iştirakı ilə keçirilən kurs başa çatıb.*



Müdafiə Nazirliyi xəbər verir ki, müvafiq kursu uğurla başa vuran hərbi qulluqçularımızın Azərbaycana qayıtması münasibətilə tədbir keçirilib.

Kurs müddətində hərbi mütəxəssislərimiz dost və qardaş ölkə Pakistan HHQ-nin heyəti ilə qarşılıqlı fəaliyyət göstərərək yüksək nəzəri və praktiki bacarıqlarını nümayiş etdiriblər.

Vətənə qayıdan hərbi qulluqçularla görüşən Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Namiq İslamzadə şəxsi heyətin fəaliyyətini yüksək qiymətləndirib.

Nazir müavini kursu müvəffəqiyyətlə başa vuran bütün heyəti fəxri fərmanla mükafatlandırıb.

Kursda yüksək peşəkarlıq nümayiş etdirən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları "kiçik gizir" hərbi rütbəsi ilə təltif ediliblər.



# “Erciyes-2025” təlimində “Yüksək Səviyyəli Müşahidəçi Günü” keçirilib







*Türkiyə Respublikasının Kayseri şəhərində "Erciyes-2025" təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirilib.*



Müdafiə Nazirliyi xəbər verir ki, tədbirdə Türkiyə Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı ordu generalı Selçuk Bayraktaroğlu, Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) komandanı general-mayor Kənan Seyidov, eləcə də Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı hərbi attaşelik aparatının və digər iştirakçı dövlətlərin hərbi nümayəndələri iştirak ediblər.

Əvvəlcə təlimin ümumi gedişatı, qarşıda duran tapşırıqların məqsədi və yerinə yetirilmə ardıcıllığı barədə qonaqlara məlumat verilib.

Təlim poliqonunda "Erciyes-2025"ə cəlb edilən iştirakçılar tərəfindən müxtəlif epizodlar praktiki icra olunub.

Təlimdə ölkəmizi təmsil edən ƏÜO-nun hərbi qulluqçuları yüksək peşəkarlıq nümayiş etdiriblər.

Sonda qonaqlara Türkiyə Respublikasında istehsal olunan silah-sursat, təchizat və müxtəlif PUA-lar təqdim edilib, onların taktiki-texniki xüsusiyyətləri və imkanları ilə bağlı ətraflı məlumat verilib.



# Hərbi attaşelər Naxçıvana səfər ediblər







Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi illik fəaliyyət planına uyğun olaraq, ölkəmizdə akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşelərinin Naxçıvan Muxtar Respublikasına səfəri təşkil edilib.

Müdafiə Nazirliyi xəbər verir ki, səfərdə 19 ölkəni təmsil edən hərbi attaşelik aparatlarının 35 nümayəndəsi iştirak edib.

Qonaqlar əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucaldılan abidəsini ziyarət edib, xatirəsinə dərin hörmət və ehtiram nümayiş etdiriblər. Sonra Heydər Əliyev Muzeyi ziyarət olunub, Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən stendlərə baxış keçirilib, zəngin dövlətçilik irsi barədə onlara məlumat verilib.

Səfər çərçivəsində qonaqlar Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) Qərargahında olublar. ƏÜO komandanı general-mayor Kənan Seyidov xarici dövlətlərin hərbi attaşeləri ilə görüşüb. Səfər iştirakçılarına ƏÜO-nun yaranma tarixi, keçdiyi inkişaf yolu, fəaliyyəti, həyata keçirilən islahatlar və qarşıda duran məqsədlərlə bağlı brifinq təqdim olunub, protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.

Qonaqlar ƏÜO-nun Təlim və Tədris Mərkəzində olub, müxtəlif sinif otaqları, simulyasiya mərkəzi və trenajorlar zalı ziyarət edilib.

Hərbi attaşelər, həmçinin Naxçıvan Hərbi Kollecini və Heydər Əliyev adına Hərbi Liseyi ziyarət edib, xüsusi təyinatlı təhsil müəssisələrində aparılan islahatlar, mövcud hərbi təhsil sistemi, tədris və elmi fəaliyyət istiqamətləri ilə tanış olublar.

Daha sonra qonaqlar Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinə aparılıb.

Sonda hərbi attaşelərin tarixi-mədəniyyət abidələrinə ekskursiyası təşkil olunub.

## **Müdafiə Nazirliyi:** Azərbaycan Ordusunun bölmələri tərəfindən atəş açılması barədə yayılan məlumat həqiqəti əks etdirmir

Mayın 29-da gecə saat 01:00-dan 01:15-dək Azərbaycan Ordusunun bölmələri tərəfindən guya Xəznəvar yaşayış məntəqəsi istiqamətində atəş açılması və yaşayış binasının ziyan görməsi barədə Ermənistan Müdafiə Nazirliyinin yaydığı məlumat növbəti dezinformasiyadır və həqiqəti əks etdirmir.

Müdafiə Nazirliyinin Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a verilən məlumata görə, qarşı tərəf bu cür məqsədyönlü dezinformasiya və yalan məlumatlar yaymaqla beynəlxalq ictimaiyyətdə yanlış rəy formalaşdırmağa və növbəti təxribatlarına zəmin yaratmağa cəhd edir.

"Bildiririk ki, Azərbaycan Ordusunun bölmələri heç vaxt mülki əhaliyə və mülki obyektlərə atəş açmır", - deyə məlumatda qeyd olunur.

* * *

Mayın 30-da gecə saat 00:10-dan 01:00-dək Azərbaycan Ordusunun bölmələrinin guya Xəznəvar yaşayış məntəqəsi istiqamətində atəş açması nəticəsində yaşayış evinə ziyan dəyməsi və bir xırdabuynuzlu heyvanın tələf olması barədə Ermənistan Müdafiə Nazirliyinin yaydığı məlumat tamamilə yalandır.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən məlumat verilib.

"Bir daha bildiririk ki, Azərbaycan Ordusunun bölmələri mülki əhalini və mülki obyektləri heç zaman hədəf almır", - deyə nazirliyin məlumatında qeyd edilib.

## Azərbaycan Ordusunda "Ən yaxşı hərbi orkestr" müsabiqəsi keçirilib



Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisinin təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, qoşun növlərinin, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrinin hərbi orkestrləri arasında "Ən yaxşı hərbi orkestr" adı uğrunda müsabiqə keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, müsabiqənin Heydər Əliyev adına Hərbi İnstitutda keçirilən açılış mərasimində Ulu Öndər Heydər Əliyevin, eləcə də Vətənimizin azadlığı, ərazi bütövlüyü və suverenliyi uğrunda gedən döyüşlərdə canlarından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.



Qeyd edək ki, müsabiqənin keçirilməsində məqsəd Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-mədəni dəyərlərinin inkişafını təmin etmək, vətənpərvərlik hissinin, həmçinin yüksək döyüş ruhunun formalaşmasına nail olmaqdır.

## *Sıra hazırlığı*

## "Məşğələlərdə öyrəndiklərimiz xidmətimiz zamanı bizə kömək olur"



**(Əvvəli 1-ci səhifədə)**

Sonra əsgər Murad Hüseynov ilə söhbətləşdik. - Əsgəri xidmət keçmək, ana Vətənimizi qorumaq bizim övladlıq borcumuzdur, - Murad dedi. - Bu müqəddəs borcun öhdəsindən uğurla gəlmək, qalib ordunun əsgəri adına layiq olmaq üçün keçirilən məşğələlərdə fəal iştirak edir, verilən əmr və tapşırıqları vaxtlı-vaxtında yerinə yetiririk. Komandirlərimizin nəzarəti altında hərbin sirlərinə dərindən yiyələnir və hər zaman intizamlı olmağa çalışır, keçirilən dərslər nəticəsində bilik və bacarıqlarımızı daha da artırırıq. Tarixi torpaqlarımızı azad edərək xalqımıza qələbə sevincini yaşatmış ordunun sıralarında xidmət etməklə qürur duyuruq. Hər zaman Müzəffər Ali Baş Komandanımızın istənilən əmrini yerinə yetirməyə, sələflərimizin yolunu davam etdirərək yeni qəhrəmanlıq salnamələri yazmağa hazırıq.

Əsgər İlkin Mustafayev də digər əsgər yoldaşları kimi Azərbaycan Ordusunda xidmət etməsindən qürur duyur. "Əsgər olmaq, Vətənə övladlıq borcunu ödəmək hər birimizin borcudur. Bizim üçün hərbi formanı geyinib, qürur və fəxr mənbəyimiz olan rəşadətli ordumuzun sıralarında dayanmaqdan böyük sevinc hissi ola bilməz. Bacarıqlı və nümunəvi əsgərlər kimi formalaşmağa, yeni döyüş vərdişlərinə yiyələnməyə çalışırıq. Bu gün sıra meydanında keçirilən məşğələdə yeni biliklər öyrənirik", - əsgər dedi.

Əsgər Səbuhi Kərimli qeyd etdi ki, xidmətə gəldiyi ilk gündən hərbi bilik və bacarıqları yüksək səviyyədə mənimsəməyə çalışıb. "Sağ olsun komandirlərimiz ki, bizim hərbi biliklərə dərindən yiyələnməyimizdə əziyyət çəkirlər. Məşğələlərdə öyrəndiklərimiz xidmətimiz zamanı bizə kömək olur".



Əsgərlərdən Fazil Həsənov, Ülvi Şahnazarov, İsa İsmayılov və digərləri də vəzifələrinin öhdəsindən layiqincə gəlməyə çalışdıqlarını, Vətənə sədaqətlə xidmət etdiklərini bildirdilər.

Söhbətləşdiyimiz əsgərlərin hər birinin ürəyi sonsuz Vətən sevgisi ilə döyünür. Bu gün onların əsas məqsədi - şəhidlərimizin qanı, canı, qəhrəman hərbçilərimizin şücaəti və fədakarlığı hesabına azad edilmiş doğma yurd-yerlərimizi göz bəbəyi kimi qorumaqdır.

Keçirilən məşğələlərə həvəslə yanaşmaları, aşılanan bilik və bacarıqları dərindən mənimsəməyə çalışmaları onu deməyə əsas verir ki, Vətən keşikçilərimiz bu müqəddəs vəzifənin öhdəsindən də 44 günlük Vətən müharibəsi və digər uğurlu əməliyyatlarda olduğu kimi müvəffəqiyyətlə gələcəklər. Onlara bu müqəddəs xidmətlərində uğurlar arzulayırıq.

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

Görkəmli şəxsiyyətlər

# General-leytenant Fərəc bəy Ağayev



*Fərəc bəy Ağayev 4 dekabr 1811-ci ildə Qarabağın Şuşa şəhərində bəy ailəsində dünyaya gəlib. İlk hərbi təhsilini Tiflis kadet korpusunda aldıqdan sonra 1837-ci ildə Qafqaz Əlahiddə Ordusunda müsəlman süvari polkunda xidmətə başlayıb. Xidmətinin 7-ci ilində ən yaxşı qvardiya rotmistri Fərəc bəy eskadron komandiri kimi Peterburqa göndərilib. O, Peterburqda birinci Nikolayın xüsusi qvardiya kazak polkunda leybqvardiya (Rusiya imperatorlarını mühafizə edən xüsusi birlik) komandiri vəzifəsinə təyin olunub.*

Fərəc bəyin qeyri-adi hərbi qabiliyyəti və nizam-intizamı I Nikolayın və onun xanımı Mariya Aleksandrovnanın diqqətini cəlb edib və onu şəxsi himayəyə götürüblər (bəzi mənbələrə görə bundan sonra o, "Nikolay Nikolayeviç Ağayev" kimi təqdim olunub).

Uzun müddət Peterburqda Rusiya imperatorunun şəxsi mühafizəçisi olub.

Fərəc bəy Ağayev özünün qeyri-adi hərbi qabiliyyəti və igidliyi sayəsində xidmətinin on ili ərzində "polkovnik" hərbi rütbəsinə yüksəlib. 1850-ci ilə qədər Peterburqda qüsursuz xidmət edən polkovnik F.Ağayev həmin ili Əlahiddə Qafqaz Ordusunun sərəncamına göndərilib.

1853-cü ildə Krım müharibəsi başlananda Fərəc bəy azərbaycanlılardan ibarət süvari alay yaradaraq onlara komandirlik edib. Müxtəlif arxiv sənədləri, komandanlığa göndərilən raport və məktublar göstərir ki, Fərəc bəyin şuşalılardan ibarət süvari polku Kürəkdərə uğrunda gedən döyüşlərdə 60 minlik korpusa qarşı dönməz bir iradə ilə vuruşub. 1854-cü ildə osetinlərdən təşkil olunmuş milis alayı da Fərəc bəyin alayına daxil edilib.

Süvari qoşun dəstəsinin komandiri kimi yüksək vəzifə daşıyan F.Ağayev hərbi xidmətinə və qoşun başçısı kimi göstərdiyi qəhrəmanlığa görə üzərində "Cəsurluğa görə" yazılmış qızıl xəncərlə, çoxlu hərbi ordenlərlə, həmçinin imperator tacı ilə bəzədilmiş birinci dərəcəli "Müqəddəs Anna" ordeni və ikinci dəfə birinci dərəcəli "Müqəddəs Anna" (qılıncla birgə) ordenləri ilə təltif olunub.

1853-56-cı illərdəki sərkərdəlik fəaliyyətinə görə Fərəc bəy Ağayev general-mayor hərbi rütbəsinə layiq görülüb. Müharibə yenicə başlayanda Fərəc bəy Ağayevin başçılığı ilə Qarabağ Azərbaycan süvari dəstəsinin təşkili haqqında Peterburqa məlumat göndərən qraf Vorontsov qeyd edib ki, general-mayor Fərəc bəyin sayəsində könüllü dəstələr tezliklə yığılıb.

40 ilə yaxın orduda qüsursuz xidmət edən Fərəc bəy Ağayev 1882-ci ildə general-leytenant rütbəsində istefaya çıxıb. Ömrünün sonuna kimi Tiflis Xeyriyyə cəmiyyətində çalışan Fərəc bəy 1891-ci ildə 26 noyabrda 80 yaşında Tiflisdə vəfat edib.

Fərəc bəy Ağayev Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabinin atası Səlim bəyin dayısı olub. H.Zərdabi Tiflisdə təhsil alarkən F.Ağayevin himayəsində yaşayıb. Şamaxı ali ibtidai məktəbini əla qiymətlərlə bitirən H.Zərdabinin təhsilini davam etdirməsində onun əvəzedilməz rolu olub.

**"Azərbaycan Ordusu"**

Tibb xidməti

# Sağlam əsgər - güclü ordu

*Son illərdə Azərbaycanda səhiyyə sisteminin müasirləşdirilməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Tibb sahəsində aparılan islahatlar həm infrastrukturun yenilənməsi, həm də kadr potensialının gücləndirilməsi baxımından mühüm nəticələr verir. Regionlarda və paytaxtda yeni tibb müəssisələrinin tikilib istifadəyə verilməsi, mövcud obyektlərin isə təmiri və müasir tibbi avadanlıqlarla təmin olunması əhalinin keyfiyyətli tibbi yardıma əlçatanlığını artırır. Eyni zamanda, həkim və tibb heyətinin bilik və bacarıqlarının daim təkmilləşdirilməsi üçün yerli və beynəlxalq səviyyəli təlim proqramları təşkil olunur.*



Bu inkişaf tendensiyası ölkənin bütün istiqamətlərində, o cümlədən hərbi tibb sahəsində də öz əksini tapır. Müasir ordu yalnız silahla deyil, eyni zamanda, sağlam və psixoloji cəhətdən dayanıqlı şəxsi heyətlə güclü sayılır. Məhz bu səbəbdən, Azərbaycan Ordusunda tibbi təminat və hərbi tibb xidmətinin səviyyəsinin yüksəldilməsi prioritet istiqamətlərdən biri kimi qəbul olunur. Hərbi qulluqçuların döyüş hazırlığının yüksək səviyyədə saxlanılması birbaşa onların fiziki sağlamlığı ilə bağlıdır. Bu isə yalnız sistemli tibbi nəzarət və keyfiyyətli xidmətlə mümkün olur.

"N" hərbi hissəsində yerləşən tibb məntəqəsində apardığımız müşahidələr göstərdi ki, burada bütün tibbi prosedurlar müasir tələblərə uyğun şəkildə təşkil edilib. Tibb müəssisəsi geniş, sanitar-gigiyenik normalara cavab verən otaqlarla təmin olunub və qabaqcıl tibbi texnologiyalarla təchiz edilib. Ən əsası isə bu sahədə çalışan tibb personalı yüksək ixtisaslı və peşəkar kadrlardan ibarətdir. Həkimlər, feldşerlər və tibb bacıları şəxsi heyətin sağlamlığının təmin olunması üçün üzərlərinə düşən vəzifələri tam məsuliyyətlə icra edirlər.

İzolyasiya və stasionar otaqların daim hazırlıq vəziyyətində saxlanılması, təxirəsalınmaz tibbi müdaxilələrin operativ şəkildə həyata keçirilməsi bu müəssisənin funksional imkanlarının yüksək olduğunu sübut edir. Bu şərait ordunun tibbi təminat sistemində kompleks yanaşmanın tətbiq olunduğunu və profilaktik tədbirlərin ön planda tutulduğunu təsdiqləyir.

Tibb məntəqəsinin rəisi tibb xidməti kapitanı Fərid Səmədov bu sahədə yüksək bilik və təcrübəyə malik zabitlərimizdəndir. O, 14 aprel 1992-ci ildə anadan olub, Abşeron rayonunun Ceyranbatan qəsəbəsindəki 1 nömrəli orta məktəbi bitirdikdən sonra hərbi həkim olmaq arzusuyla ali təhsil yoluna qədəm qoyub. Bu istəyin nəticəsi olaraq 2016-cı ildə Hərbi Tibb Fakültəsini müvəffəqiyyətlə başa vurub.

Kapitan Fərid Səmədov həm 44 günlük Vətən müharibəsində, həm də antiterror əməliyyatında iştirak edib. Onun göstərdiyi xidmətlər dövlət səviyyəsində yüksək qiymətləndirilib - "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Kapitan Fərid Səmədov bildirdi: "Hərbi həkim olmaq mənim uşaqlıq arzum olub. Çünki mənə görə əsgərin sağlamlığını qorumaq da Vətəni qorumaq qədər şərəflidir. Müharibədə yaralı döyüşçülərimizin həyatını xilas etmək üçün gecə-gündüz çalışmışıq. İndi də sülh dövründə onların sağlamlığının keşiyində dayanmaq bizim borcumuzdur".

Tibb məntəqəsində sanitar-təlimatçı vəzifəsində xidmət edən kiçik çavuş Nurlan Muradov da 9 illik xidmət dövrü ərzində bir sıra önəmli hadisələrin canlı şahididir. O da 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında iştirak edib. Göstərdiyi xidmətlərə görə "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

Kiçik çavuş Nurlan Muradov dedi: "Müharibə dövründə bir an belə geri çəkilmədik. Yaralı hərbi qulluqçularımızın sağ qalması üçün saniyələrlə yarışırdıq. İndi isə gündəlik xidmətimizdə onlara vaxtında tibbi yardım göstərməklə bu müqəddəs işi davam etdiririk".



Tibb məntəqəsində müayinə və müalicə alan əsgərlər söhbətimiz zamanı onlara göstərilən xidmətlərdən razı qaldıqlarını bildirdilər. Əsgər Amil Mirzəyev səhhəti ilə bağlı bunları qeyd etdi: "Özümü bir az halsız hiss edirdim. Tibb məntəqəsinə yaxınlaşdım, həkimlər ciyərlərimi yoxladılar, dərhal müvafiq prosedurlar yerinə yetirildi. Artıq səhhətimlə bağlı hər şey qaydasındadır".

Əsgər Rəhman Məmmədzadə isə tibb məntəqəsində çalışan tibbi heyətin çox diqqətcil olduqlarını vurğuladı: "Təzyiqim düşmüşdü, dərhal ölçüldü, dərman verildi. Həkimlər bizə qarşı çox məsuliyyətlidirlər".

Əsgərlər Nicat Zeynalzadə, Vilayət Rəhimli və Elcan Ələsgərli də tibb məntəqəsində göstərilən xidmətdən razı olduqlarını bildirdilər. Onlar üçün əsas olan sağlamlıqdır və bu sağlamlığın keşiyində duran tibb heyəti öz işinin öhdəsindən peşəkarlıqla gəlir.

Bütün bunlar onu göstərir ki, hərbi tibb sahəsində əldə olunan nailiyyətlər ölkəmizin müdafiə qüdrətinin tibbi təminat baxımından da etibarlı şəkildə qurulduğunu sübut edir. Necə ki, əsgər torpağın keşiyində dayanaraq Vətənin müdafiəsini təmin edir, hərbi tibb personalı da onların sağlamlığını qorumaqla həmin müqəddəs vəzifənin ayrılmaz hissəsini yerinə yetirir.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

## Medallı igidlərimiz

# "İrəli atdığımız hər addım bizi tarixi Zəfərə, Böyük Qələbəyə daha da yaxınlaşdırırdı"



*27 sentyabr 2020-ci il. Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan Ordusunun bütün cəbhəboyu yerləşən mövqelərimizi və yaşayış məntəqələrimizi atəşə tutaraq genişmiqyaslı təxribat törətməyə cəhd göstərdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmri ilə ordumuz bu təxribatın qarşısını qətiyyətlə alaraq, əks-hücum əməliyyatına başladı. İgid oğullarımızın şücaəti sayəsində əzəli və tarixi torpaqlarımız azad olundu. Cəmi 44 gün ərzində rəşadətli Azərbaycan Ordusu döyüş meydanında şəhidlik zirvəsinə yüksələn bütün soydaşlarımızın qisasını aldı, tarixi ədaləti bərpa etdi.*

Mənfur düşməndən qisasımızı alanların sırasındakı oğullarımızdan biri də Naxçıvan Muxtar Respublikasında dünyaya göz açmış mayor Anar Baxşəliyevdir. Onun kiçik yaşlarından arzusu müqəddəs peşəyə sahib olmaq, hərbi forma daşımaq və ermənilərin xalqımızın başına açdığı müsibətlərin qisasını almaq idi. Anar bunlara nail olmaq üçün əvvəlcə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olub. Liseyi müvəffəqiyyətlə başa vurduqdan sonra indiki Heydər Əliyev adına Hərbi İnstitutda təhsilini davam etdirib. Tədris dövründə hərbin sirlərinə dərindən yiyələnərək, bilikli zabit kimi formalaşıb. Xidmətə başladığı ilk gündən etibarən hərbi təhsil müəssisəsində öyrəndiklərini tabeliyində xidmət edən şəxsi heyətə aşılayıb. Bunun nəticəsində onun rəhbərlik etdiyi bölmə təlimlərdə qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlib.

Torpaqlarımızın azadlığı uğrunda başlayan 44 günlük Vətən müharibəsində Azərbaycanın mərd və vətənpərvər oğulları kimi mayor A.Baxşəliyev də şəxsi heyət ilə birgə Füzuli, Qubadlı, Zəngilan, Xocavənd və Şuşanın azadlığı uğrunda gedən döyüş əməliyyatlarında iştirak edib. Döyüşlərin ilk günlərindən cəsarəti və şücaəti ilə fərqlənən mayor Baxşəliyev verilən tapşırıqları uğurla yerinə yetirib.

Hələ uşaqlıqdan torpaqlarımızın işğaldan azad olunacağı günün həsrətilə yaşayan zabit yorulmaq bilmədən yalnız irəliyə doğru gedib. "Düşmənin mina sahəsi və müxtəlif maneələri zərərsizləşdirilməli, qoşunlarımızın irəliləməsi üçün yol açılmalı idi. İllərdir gözlədiyimiz əmri qələbə ovqatı ilə yerinə yetirdik. Təlim və məşqlərdə öyrəndiklərimizi döyüş meydanında uğurla tətbiq etdik. Düşmənin ön xətti yarıldıqdan sonra tarixi torpaqlarımıza doğru irəlilədik. Ana Vətənimiz uğrunda döyüşmək, illərdir həsrətində olduğumuz torpaqlarımızı mənfur düşməndən azad etmək çox böyük xoşbəxtlik idi. İrəli atdığımız hər addım bizi tarixi Zəfərə, Böyük Qələbəyə daha da yaxınlaşdırırdı. Qəsbkarlar ordumuzun gücü qarşısında tab gətirə bilmədilər. Getdikcə qüvvəsi tükənən, müqaviməti qırılan, şəxsi heyətini, hərbi texnikasını itirən düşmən silah-sursatını atıb çıxış yolunu qaçmaqda gördü", - mayor A.Baxşəliyev dedi.

Zabitimiz döyüşlərin bitməsinə bir gün qalmış, yəni, noyabrın 9-u yaralanıb. Təxliyə olunaraq ilkin tibbi yardım göstərildikdən sonra Bakıya, hərbi tibb müəssisəsinə göndərilib. "Bu gün döyüşlərdə iştirak edən xidmət yoldaşlarım kimi, mən də qürurlanıram ki, 30 ilə yaxın işğalda qalmış doğma torpaqlarımızın azad edilməsində, xalqımıza Böyük Qələbə sevincinin yaşadılmasında payım var".

Cəmi 44 gün davam edən haqq mübarizəmizdə canını Vətən üçün qurban verən şəhidlərimizin və mayor A.Baxşəliyev kimi hərbi qulluqçularımızın sayəsində torpaq həsrətinə son qoyuldu. Şəhidlərimizin qisası döyüş meydanında düşməndən alındı. Bununla da bütün dünya Azərbaycan dövlətinin, Azərbaycan xalqının və Azərbaycan Ordusunun gücünün, qüdrətinin şahidi oldu.

Mayor Baxşəliyev Anar Mübariz oğlu Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə torpaqlarımızın azad olunması uğrunda gedən döyüş əməliyyatlarında tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib.

Söhbət əsnasında öyrəndik ki, mayor Anar Baxşəliyev həm də 2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağ iqtisadi rayonunda həyata keçirilən lokal xarakterli antiterror əməliyyatında da iştirak edib. Bu əməliyyat zamanı da o, peşəkarlıq nümayiş etdirərək, qarşıya qoyulan əmr və tapşırıqların öhdəsindən layiqincə gəlib.

Zabitimiz bu gün də tabeliyində olan şəxsi heyətə bilik və bacarıqlarını, eləcə də döyüşlər zamanı əldə etdiyi təcrübələri aşılayır, əsgərlərimizin Vətənə olan övladlıq borcunu layiqincə yerinə yetirmələrində əlindən gələni əsirgəmir.

Qalib Azərbaycan Ordusunun sıralarında bu gün də Anar kimi oğullarımız yetərincədir. Xalqımız bu cür oğullarla həmişə fəxr edib, qürur duyub, bundan sonra da fəxr edəcək və qürur duyacaqdır.

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

# Ötən həftə 132 mina və 683 partlamamış hərbi sursat zərərsizləşdirilib




Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən mayın 19-dan mayın 25-dək icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 80, tank əleyhinə 52 mina və 683 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 1795,7 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

## Nümunəvi xidmət

# Vətənə xidmət, sadiqlik və inam



Masallı rayonunun Təklə kəndində 22 oktyabr 2006-cı ildə dünyaya gələn Asim Ağayev sadə bir ailədə böyüyən, mübariz və əzmkarlığı ilə tanınan bir gəncdir. O, mühəndis-istehkam bölməsində müddətli əsgər kimi xidmət edir. Hərbi xidmətə başladığı ilk gündən etibarən onu həm fiziki hazırlıq, həm də mənəvi dəyərlər gücləndirib. "Vətənə xidmətin mənası çox dərin və müqəddəsdir. Hər bir tapşırıq, hər bir təlim mənim üçün yeni bir həyat dərsidir", - deyə Asim bildirdi.

Asimə görə hərbi xidmətin ən vacib tərəflərindən biri, nizam-intizam və komandaya olan bağlılıqdır. "Bütün hərbi təlimlərdə, həm də gündəlik xidmətimdə nizam-intizamı qorumağa çalışıram. Bu, sadəcə bir hərbi tələb deyil, həyatımı formalaşdıran bir prinsipdir", - Asim dedi. Hərbi xidmətin ona daha dərindən aşıladığı ən vacib keyfiyyətlərdən biri də dövlətinə və Vətəninə olan sadiqliyidir. Bu sadiqlik onun gündəlik fəaliyyətində, komandirlərinə və əsgər yoldaşlarına olan münasibətlərində və xidmətində özünü daha aydın şəkildə göstərir.

Asimin həyat yolunda hərbi xidmət yalnız bir vəzifə deyil, həm də gələcəyinə doğru bir addım daha yaxınlaşmaqdır. Onun üçün hər bir gün yeni bir məqsədin təcəssümüdür. "Hər bir əsgər öz vəzifəsini ən yaxşı şəkildə yerinə yetirmək üçün çalışmalıdır. Hər bir tapşırıq Vətənimizin müdafiəsi üçün vacibdir", - deyə Asim vurğuladı.

Gündəlik həyatında özü üçün tələblər qoyan Asim xidmət yoldaşları ilə birlikdə hər bir tapşırığı yüksək səviyyədə yerinə yetirməyə çalışır. "Vətənə olan sevgim və bağlılığım hər gün məni daha da güclü edir", - deyə Asim öz fikirlərini tamamladı.

Asim Ağayev Vətənə olan övladlıq borcunu yerinə yetirmək üçün daim öz üzərində çalışır. Hər bir əsgərin üzərinə düşən vəzifə təkcə orduda xidmət etmək deyil, həm də Vətənə olan sevgisini və sadiqliyini göstərməkdir. Asim bu vəzifəni yerinə yetirmək üçün bütün gücü ilə çalışır və hər bir addımında özünü daha yaxşı, daha güclü etmək üçün mübarizə aparır.

**Baş leytenant**
**Rauf ƏLƏSGƏROV**
**"Azərbaycan Ordusu"**

# Mübariz ruhlu və nizam-intizamlı əsgər



Hüseyn Qasımov 2006-cı ilin 2 iyulunda Masallının Mahmudavar kəndində dünyaya gəlib. Hüseyn uşaqlıqdan idmana maraq göstərib və 5 yaşından sərbəst güləşlə məşğul olmağa başlayıb. Hər məşq, hər yarış onun üçün yeni bir təcrübə, daha güclü olmağa doğru atılan addımlar idi.

Hüseynin uşaqlıq illəri Mahmudavar kəndinin yaşıllıqları içərisində, sadə kənd həyatı mühitində dostları ilə birgə keçib. O, uşaqlıqdan zəhmətə, çalışqanlığa alışıb. Güləş məşqləri onun fiziki gücünü artırsa da, ən çox iradəsini möhkəmləndirib. O, məğlubiyyətlərdən qorxmayıb, hər birinə yeni bir dərs kimi baxıb. Müəllimlərinin dəstəyi, ailəsinin sevgisi və öz əzmkarlığı ilə gənc yaşında iki dəfə yeniyetmələrarası zona birincisi olub.

2025-ci il onun üçün xüsusi bir il oldu. Keçirilən idman yarışlarının sərbəst güləş növündə birlik üzrə birinci yeri, Quru Qoşunları üzrə isə ikinci yeri tutub. Bu nailiyyətlər sadəcə medallar deyil, onun çalışqanlıq və iradəsinin nəticəsidi. Hüseynin idman yarışlarında qazandığı təcrübə ona həm də mənəvi güc verib.

Hüseynin həyatı yalnız idmanla məhdudlaşmır. Hazırda o, mühəndis-istehkam bölməsinin əsgəridir. Hərbi xidmət onun üçün yalnız bir vəzifə deyil, həm də məsuliyyət və nizam-intizam məktəbidir. O, burada fiziki hazırlıqla bərabər, mənəvi keyfiyyətlərini də möhkəmləndirir. Günün nizam qaydalarına əsasən başlayan təlimlər, komanda ilə birgə icra edilən tapşırıqlar və nizam-intizam ona nümunəvi əsgər olmağı öyrədib.

Hərbi xidmətdə nümunəvi əsgər olan Hüseyn burada yeni dostlar qazanıb. Onlarla birlikdə çətinlikləri aşır, müvəffəqiyyətləri birlikdə qazanırlar. Onun üçün hər gün yeni bir dərs yeni bir təcrübədir.

Əsgər Hüseyn Qasımovun həyat yolu ona həm idmanda, həm də hərbi xidmətdə uğurlar qazandırır. O, çalışqanlığı və qətiyyəti ilə özünü sübut etmiş bir əsgərdir. Hüseyn hər addımı ilə Vətənə olan bağlılığını təsdiq edir, bu bağlılıq isə onun üçün sadəcə bir vəzifə deyil, həyatının ayrılmaz hissəsidir.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

*Fiziki hazırlıq*

# Dəmir iradə, polad bədən

(Əvvəli 1-ci səhifədə)

"N" hərbi hissəsində də şəxsi heyətin fiziki hazırlığı daim diqqət mərkəzində saxlanılır. Məşğələ rəhbəri leytenant İsbəndiyar Qarayev bildirdi ki, fiziki hazırlıq məşğələləri günün nizam qaydasına uyğun şəkildə həyata keçirilir. Hərbi hissəmizdə standartlara cavab verən idman şəhərciyi yaradılıb. Burada idmanın bir çox növü ilə məşğul olmağa şərait mövcuddur. Əsgərlərin döyüş hazırlığının bir hissəsi kimi, fiziki hazırlığına da xüsusi önəm verilir. Şəxsi heyətin fiziki cəhətdən güclü və dözümlü olması vacib şərtlərdəndir. Hər hansı döyüş tapşırığının yüksək səviyyədə yerinə yetirilməsi üçün fiziki baxımdan hazırlıqlı olmaq əsas amillərdəndir. Bundan əlavə, idmanla müntəzəm məşğul olmaq əsgərlərdə özünəinam və liderlik hisslərini gücləndirir, fərdi keyfiyyətlərinin müsbət yöndə inkişafına mühüm töhfə verir. Əsgərlərimizin bir çoxu ordu sıralarına çağırılanadək idmanın müxtəlif növləri ilə məşğul olublar. Bəziləri isə respublika və beynəlxalq səviyyəli yarışlarda iştirak ediblər. Hərbi xidmətdə olduqları müddətdə də müntəzəm şəkildə məşq edir və fiziki hazırlıqlarını artırırlar".

Öyrəndik ki, leytenant İsbəndiyar Qarayev də uzun illərdir cüdo ilə məşğul olur və bu sahədə bir sıra nailiyyətlərə imza atıb. O, bildirdi ki, hərbi xidmətdə tapşırıqların icrasında idmanla məşğul olması ona böyük fayda verir.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Zülfüqar Ələsgərov isə bildirdi ki, fiziki hazırlıq məşğələləri iradə, güc və dözümlülüyün artırılmasında əsas vasitədir. "Günə fiziki hazırlıq məşğələsi ilə başlamaq gün ərzində gümrah olmağımıza kömək edir. Burada bizim üçün hər cür şərait yaradılıb. Gün ərzində iki dəfə idmanla məşğul oluruq. Fiziki hazırlıq məşğələlərinə hər birimiz böyük maraqla qatılırıq. Həftə sonları bölmələr arasında müxtəlif idman yarışları keçirilir. Hərbi hissədə təşkil olunan yarışlarda bölməmiz bir neçə dəfə qalib olub".



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Xəqani Vəliyev isə qeyd etdi ki, hərbçi üçün idman sadəcə məşq deyil, bir həyat tərzidir. İdman əsgərin dözümlülüyünü artırmaqla yanaşı, Vətən qarşısında məsuliyyət hissini də gücləndirir".

Gizir Səxavət Məmmədov fiziki hazırlıq məşğələlərinin çeviklik, çəldlik və dözümlülüyün inkişafında mühüm rol oynadığını vurğuladı: "Hərbi xidmətə gəlməzdən öncə mən də idmanla məşğul olmuşam. Hərbi xidmətə başladığım gündən bu fəaliyyətimi nizami şəkildə davam etdirirəm. Bu gün biz təlimlərdən uğurla çıxırıqsa, bu, komandirlərimiz və fiziki hazırlığımız sayəsindədir. Onlar keçdikləri məşğələlərlə bizi güclü və dözümlü döyüşçü, əsl hərbçi kimi formalaşdırırlar.

Giziri Saleh Süleymanov da idmanın əhəmiyyətindən danışaraq bildirdi ki, fiziki hazırlıq həm döyüş meydanında, həm də gündəlik xidmət zamanı rahatlıq və özünəinam hissi yaradır. O, xüsusilə güləş və cüdo kimi döyüş növlərinə maraq göstərdiyini və bu növlərin əsgərə həm özünü müdafiə etməyi, həm də strateji düşünməyi öyrətdiyini vurğuladı.

**Baş leytenant**
**Əli ABIYEV**
**"Azərbaycan Ordusu"**

## ANAMA axtarış əməliyyatlarında müasir texnologiyalardan istifadəyə üstünlük verir





Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) mina və döyüş sahələrinin təmizlənməsi əməliyyatları ilə yanaşı, keçmiş sursat anbarları, eləcə də poliqon ərazilərinin partlamamış hərbi sursatlardan təmizlənməsi əməliyyatlarını icra edir.

ANAMA-nın mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, fəaliyyətini ən keyfiyyətli minaaxtaran avadanlıqlarla beynəlxalq standartlar və metodologiyalar çərçivəsində həyata keçirən ANAMA, eləcə də müasir texnologiyaların istifadəsinə üstünlük verir.

Belə ki, sifarişə əsasən torpağın 6 metr dərinliyinə qədər metal tərkibli sursatları aşkar etmək qabiliyyətinə malik avadanlıqlardan istifadə olunur.

Avadanlıqların tərkibində olan 8 kanallı maqnitometr sisteminin iş prinsipi yerin maqnit sahəsindəki dəyişiklikləri qeydə almaqdan ibarətdir. Bu istiqamətdə fəaliyyət zamanı yüksək dəqiqlikli koordinat əldə etmək üçün DGPS texnologiyası tətbiq edilir. Toplanmış məlumatlar xüsusi proqramda emal olunur və sahə xəritələri yaradılır. Bu sistem mina və döyüş sursatlarının torpağın dərinliyində yüksək dəqiqliklə aşkarlanmasına imkan yaradır.




*Məişət*

# "Anamın bişirdiyi xörəyin tamını burada hiss edirəm"



(Əvvəli 1-ci səhifədə)

Baş gizir Nüsrət Həsənov 10 ilə yaxındır ki, xidmətdədir. Burada yaradılan səliqə-sahman, təmizlik işçilərin tələblərə uyğun geyinərək təyin edilmiş vəzifədə çalışmalarını təmin edir. Nüsrət yeməkxanada aparılan işlər haqqında danışdı. Qida rasionuna uyğun milli xörəklərin hazırlandığını bildirdi. Həmçinin qeyd etdi ki, xörəklərlə yanaşı mövsümə uyğun olaraq təbii meyvə suları, salatlar da hazırlanır. Yeməkxanada çalışan aşpazlar Bəyim Babayeva, Mətanət Süleymanova və Mətanət Cabbarovanın bişirdikləri xörəklərin dadından hər kəs razılıq edir. Hər biri əlindən gələnin ən yaxşısını edir ki, Vətən müdafiəçiləri üçün ləziz yeməklər hazırlansın.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elçin Ağayev də bir neçə ildir ki, baş aşpaz kimi xidmətini davam etdirir. O, İkinci Qarabağ müharibəsi zamanı ön cəbhədə döyüşən hərbi qulluqçulara səhra mətbəxində yeməklər bişirib. Aşpazların bişirdikləri mərci, toyuq şorbaları, küftə-bozbaş, düyü plov aşqarası ilə, kələm dolması və digər xörəklərdən hər kəsin razı olması onların peşəkarlığından xəbər verir.

Yeməkxanadan çıxan əsgərlərin də düşüncələrini öyrəndik. Hər biri bişirilən xörəklərin dadından və keyfiyyətindən ağızdolusu danışdı. Əsgərlərdən Mirəziz Bağırov dedi ki, burada bişirilən xörəklər həmişə dadlı olur. "Hərbi xidmətə gəlməmişdən buranın yeməklərinin necə olacağı məni çox düşündürürdü. Bəzən də öz-özümə sual edirdim: görəsən, nə cür xörəklər verəcəklər? Evdə anamızın bişirdiyi xörəklərin dadını, tamını verəcəkmi? Artıq bu gün tərəddüdsüz deyə bilərəm ki, anamın bişirdiyi xörəklərin tamını burada da hiss edirəm".

Yeməkxana rəisi dedi ki, şəxsi heyətin sayına uyğun səhər, günorta, axşam yeməklərinin ərzaqlarını yeməkxana növbətçisi aşpazların iştirakı ilə anbardan götürür və hazırlayırlar. Verilən ərzaqların keyfiyyəti yoxlanılır, müddəti keçən və keyfiyyətsiz ərzaqlar verilmir. Buna nəzarət də komandanlıq tərəfindən ciddi həyata keçirilir.

Beləliklə, əsgər yeməkxanasında gündəlik aşpazların, yeməkxana işçilərinin fəaliyyəti ilə yaxından tanış olub xoş təəssüratlarla ayrıldıq.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**



# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Azərbaycan Ordusunun yaranması və formalaşması.

**Suallar:**

**1. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu.**

**2. Azərbaycan Ordusunun yaranmasının hüquqi əsasları və inkişaf mərhələləri.**

### Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu

Ordu bir dövlətin, onun xalqının, milli sərvətlərinin, mədəniyyətinin, tarixinin, bütövlüyünün və birliyinin qorunmasının əsas şərti, amilidir. Ordu həm də güc göstəricisi, siyasi arenada dövlətlərin sözünün kəsərini artıran, mövqeyini qəbul etdirən böyük bir silahdır. İstər keçmiş, istərsə də müasir geosiyasi şərait güclü dövlət olmağın əsas şərti kimi qüdrətli orduya sahib olmağı ön plana çıxarır.

Azərbaycan müstəqillik əldə edənə qədər bəşəriyyət tarixinin ən dəhşətli və ən qanlı hərbi-feodal müstəmləkə rejimi olan Rusiya imperiyasının tərkibində idi. Birinci Dünya müharibəsinin gedişində və Romanovlar monarxiya rejiminin devrilməsi nəticəsində yaranmış çox mürəkkəb bir tarixi şəraitdə Azərbaycanın şimal torpaqlarında dövlətçilik ənənələrimiz yenidən, parlamentli respublika formasında dirçəldi. Birinci Dünya müharibəsində böyük dövlətlərin dünyanı bölüşdürmək uğrunda mübarizəsinin həlledici mərhələyə daxil olduğu və ölkənin başı üzərinin yeni işğal təhlükəsinin aldığı çox mürəkkəb bir daxili və beynəlxalq tarixi şəraitdə fəaliyyət göstərən Azərbaycan Parlamenti öz fəaliyyətinin mühüm hissəsini dövlət müstəqilliyinin qorunub saxlanılmasına və ordu quruculuğu məsələlərinə yönəltmişdi. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli qərarı ilə Rusiya imperiyası dövründə keçmiş Tatar süvari alayının əsgərlərindən formalaşdırılmış və general Əlağa Şıxlinskinin rəhbərlik etdiyi Müsəlman korpusunun əsasında ilk ordu hissəsi olan "Əlahiddə Azərbaycan korpusu" yaradıldı. Bu addım xalqımızın dövlətçilik tarixində özünəməxsus yer tutan Azərbaycan Xalq Cümhuriyyətinin ən böyük xidmətlərindən biri kimi tarixləşdi. Gənc Demokratik Cümhuriyyətin yaradıcıları milli dövlətçiliyimizi qorumaq, ölkəni xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün özünün silahlı qüvvələrini yaratmaqla, milli dövlətçiliyimiz yolunda ölçüyəgəlməz, qarşısıalınmaz bir prosesə başladılar.

1918-ci ildə dünyada və regionda baş verən ictimai-siyasi hadisələrə görə Azərbaycanda mövcud olan milli hərbi qüvvələrin və Azərbaycan dövlətinə göndərilmiş olan Osmanlı hərbi qüvvələrinin bazasında Qafqaz İslam Ordusu yaradıldı və ordu hissələrinin fəaliyyətinə rəhbərlik Azərbaycan hökumətinin razılığı ilə Qafqaz İslam Ordusu komandanına həvalə edildi. Qafqaz İslam Ordusunun mövcudluğu dövrü Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğunun birinci mərhələsini təşkil etmişdir. 1918-ci il noyabrın 1-dən isə Cümhuriyyətin ordu quruculuğunun ikinci mərhələsi başladı. Həmin gün Azərbaycan hökuməti Hərbi Nazirliyin bərpa edilməsi haqqında qərar qəbul etdi. F.Xoyski Hərbi nazir, S.Mehmandarov nazir müavini təyin edildi və nazirliyin formalaşdırılması ona həvalə edildi. "Mudros" (30.10.1918-ci ildə Osmanlı və Antanta dövlətləri arasında bağlanmış sülh müqaviləsi) müqaviləsinin şərtlərinə görə Azərbaycana gəlməli olan ingilis qüvvələri komandanı general Tomson Bakı şəhərinin istər iqtisadi baxımdan, istərsə də hərbi-siyasi cəhətdən mühüm strateji mərkəzi olması səbəbindən nəzarəti tamamilə əlində saxlamaq məqsədilə türk qoşunları kimi Azərbaycan Ordusunun da 1918-ci il noyabrın 17-dək Bakı şəhərini tərk etməsini tələb edirdi. Bu səbəbdən 1918-ci il noyabrın 22-də Hərbi Nazirlik Gəncə şəhərinə köçdü. Hərbi Nazirliyin Gəncə şəhərinə köçürülməsi hökumət orqanlarının əlaqələrində və bütövlükdə ordunun formalaşması prosesində çətinliklər yaradırdı.

1918-ci ilin sonu 1919-cu ilin əvvəlində yenidən Hərbi Nazirliyin rəhbərliyində və strukturunda qismən dəyişiklik edildi ki, bu da ordunun formalaşması prosesinə müsbət təsir göstərdi. Tam artilleriya generalı S.Mehmandarov hərbi nazir, general-leytenant Ə.Şıxlinski hərbi nazirin müavini təyin edildi. Hərbi Nazirliyin bərpa edilməsindən sonra ilk növbədə pərakəndə olan hissələri möhkəmləndirmək, onları vahid rəhbərlik altına gətirmək üçün mərkəzi hərbi idarəetmə orqanlarının təşkilinə diqqət yetirildi. Qısa müddət ərzində Hərbi Nazirliyin aparatı və Ümumi Qərargah (Qlavnıy ştab) yaradıldı. Orduda xidmətin təşkilinin hüquqi əsasda nizamlanmasına xüsusi diqqət yetirildi. Qısa müddət ərzində Azərbaycan Ordusunun yeni qanunvericilik bazasının yaradılması mümkün olmadığı üçün 1917-ci il yanvarın 1-dək keçmiş Rusiya imperiyasında qəbul edilmiş hərbi qanunvericilik aktları qüvvədə saxlanılırdı. Ancaq bu qanunvericilik aktlarının Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi, milli orduda xidmətin bu və ya digər uyğun gəlməyən tələbləri ləğv edilirdi. Ordu quruculuğuna türk və rus təcrübəsinin güclü təsirə malik olmasına baxmayaraq Azərbaycanda milli zəminə söykənən ordu formalaşdırıldı. Azərbaycan dili orduda da dövlət dili elan edildi. Azərbaycan dilinin öyrənilməsi və savadsızlığın ləğvi üçün orduda kurslar yaradıldı. Azərbaycan döyüşçüsünün mənəvi dünyasının yaradılmasında mənsub olduğu xalqın tarixi keçmişinin öyrənilməsinə, onun qəhrəmanlıq nümunələri üzərində tərbiyələndirilməsinə böyük əhəmiyyət verilirdi. Hərbi Nazirliyin bərpasının ilk günlərindən hərbi qulluqçuların geyim formasının da milliləşdirilməsi və onun Azərbaycan Ordusuna uyğunlaşdırması üçün zəruri tədbirlər görüldü.

Yeni dəyərlər üzərində qurulan ordunun milli kadrlarının hazırlanması da Hərbi Nazirliyin qarşısında duran əsas vəzifələrdən biri idi. Bu vəzifənin həllinə nail olmaq üçün hələ türk qoşunlarının Azərbaycanda olduğu vaxt Gəncə şəhərində fəaliyyət göstərən hərbi məktəbin fəaliyyəti yenidən quruldu və onun statusu artaraq praporşiklər məktəbinə çevrildi. Praporşiklər məktəbinin bazasında Hərbiyyə məktəbi, Azərbaycan Ordusunun milli hərbi kadrlar hazırlayan istehkam və hərbi dəmiryolçular məktəbi, həmçinin feldşer məktəbi açıldı. Obyektiv çətinliklər (Sentrokaspi diktaturası və ingilis müdaxiləçilərinin təmizlənilməsi) üzündən hərbi-dəniz qüvvələrinin təşkilinə 1919-cu illərin sonlarında başlanıldı. Hərbi Nazirlik hərbi-hava qüvvələrinin təşkilinin zəruriliyini nəzərə alaraq müvafiq kadrların hazırlanması üçün 1919-cu ildə Azərbaycan-Gürcüstan hərbi əməkdaşlıq müqaviləsi bağladı. Bu müqaviləyə əsasən, Azərbaycandan bir qrup heyət təyyarəçi peşəsinə yiyələnməsi üçün Tiflis Aviasiya məktəbinə göndərilmişdir. Milli kadrlara olan ehtiyaclarının ödənilməsi üçün isə Hərbi Nazirlik 1920-ci ildə Azərbaycanda hərbi təyyarəçilər məktəbini açmışdır.

### Azərbaycan Ordusunun yaranmasının hüquqi əsasları və inkişaf mərhələləri

Azərbaycanın zəngin dövlətçilik tarixində güclü, mütəşəkkil, peşəkar və yüksək döyüş hazırlığına malik ordunun yaradılması, formalaşdırılması, inkişafı müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, milli həmrəylik və bütövlüyünü təmin edən azərbaycançılıq ideologiyasının banisi, xalqımızın və dövlətimizin xilaskarı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Güclü siyasi iradəyə, yüksək sərkərdəlik məharətinə malik Azərbaycan xalqının Ümummilli Liderinin rəhbərliyi ilə milli ordumuzun yaradılmasına ötən əsrin 90-cı illərində Naxçıvanda başlamışdır. O dövrdə Ulu Öndərin Muxtar Respublikada ordu quruculuğu istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlər blokada şəraitində yaşayan Naxçıvanı düşmən hücumlarından qorumaqla bərabər, müstəqil Azərbaycanda Milli Ordu quruculuğu prosesinin növbəti mərhələsinin başlanğıcı oldu.

Azərbaycan Ordusunun yaranması və müasir tələblər səviyyəsində formalaşması məhz ağır, mürəkkəb və keşməkeşli yollardan keçmişdir. Ermənistanın təcavüzü, dövlətçiliyin itirilməsi təhlükəsi, daxili çəkişmələr, yeni yaradılmış özünümüdafiə taborlarının ayrı-ayrı siyasi məqsədlərə xidmət etməsi bir tərəfdən torpaqlarımızın işğalına şərait yaradır, digər tərəfdən ordumuzun yaranmasına mane olurdu. Böyük sərkərdə, hərb elminin bütün incəliklərini dərindən bilən Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra respublikamızın həyatının bütün sahələrində olduğu kimi, ordu quruculuğu da planlı surətdə həyata keçirilməyə başladı. İlk növbədə qanunsuz hərbi dəstələr buraxıldı, Silahlı Qüvvələr dövlət nəzarətinə alındı. Digər ölkələrin nümunələrindən, Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişənin təcrübəsindən istifadə olunaraq mükəmməl hərbi qanunvericilik sistemi yaradıldı. Ulu Öndərin titanik fəaliyyəti nəticəsində güclü Azərbaycan Ordusu yaradılmağa başlandı. Ordu quruculuğunun elmi-təcrübi əsaslar üzərinə qoyulması, vahid komandanlıq prinsipinin həyata keçirilməsi Qarabağ bölgəsində gedən döyüş əməliyyatlarına öz müsbət təsirini göstərdi. Ulu Öndərin sərkərdəliyi ilə o dövr üçün olduqca gərəkli Horadiz əməliyyatı keçirildi. Qələbə ilə nəticələnən bu əməliyyat ordunun şəxsi heyətinin döyüş əzmini, qələbə ruhunu kükrətdi. Azərbaycan əsgəri inandı və hər kəsi inandırdı ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Bu inam xalqın orduya münasibətinin başlıca tərkib hissəsi oldu.

1993-cü il noyabrın 2-də Ulu Öndər Heydər Əliyevin Azərbaycan Dövlət Televiziyası və Radiosu ilə xalqa müraciətdən sonra qəlbində Vətən sevgisi olan, respublikamızdan kənarda hərbi xidmət keçən peşəkar zabitlərin, kadrların Azərbaycana axını ilə müasir Azərbaycan Ordusunun əsası qoyuldu. Dövlət Müdafiə Şurasının ilk iclasında rüşvətxorluğa, cinayətkarlığa, Vətən qarşısında öz müqəddəs borcunu yerinə yetirməkdən boyun qaçıran şəxslərə qarşı barışmaz mübarizə aparılacağının bəyan edilməsi, çağırış və səfərbərliyin, hərbi komissarların işinin günün tələblərinə uyğun qurulması, fərarilərə, xidmətdən yayınanların hamısına qarşı ciddi cəzaların tətbiq olunması istiqamətində atılan qətiyyətli addımlar Azərbaycan Ordusunun döyüş hazırlığının yüksəlməsinə səbəb oldu. Ordu quruculuğu sahəsində aparılan işlərin sistemləşdirilməsi, mərkəzləşdirilməsi, hərbi qulluqçularda Vətənə, xalqa, dövlətçiliyimizə sədaqət və məhəbbət hisslərinin möhkəmləndirilməsi, onların ümumdövlət mənafeləri ətrafında səfərbər edilməsi, ordunun vahid komandanlıq prinsipi əsasında fəaliyyət göstərməsi qısa müddətdən sonra öz səmərəsini verdi.

Ulu Öndər Heydər Əliyev ordu quruculuğu prosesinə hələ 1969-cu ildə respublikaya rəhbər seçilməsi ilə başlamışdır. Belə ki, hərbi kadr sahəsində atdığı addımlar, Cəmşid Naxçıvanski adına hərbi təmayüllü ixtisaslaşdırılmış orta məktəbin əsasının qoyulması, azərbaycanlıların ölkə xaricində hərbi məktəblərə daxil olmasının təmin edilməsi, milli zabit kadrlarımızın vəzifələrə irəli çəkilməsi Azərbaycan dövlətinin hərb tarixində yeni bir mərhələnin əsasını qoydu. Ulu Öndər tərəfindən ordu quruculuğu sahəsində milli maraqlarımızın qorunaraq, inkişaf etdirilməsi istiqamətində atılan tarixi addımlar sonradan müstəqil Azərbaycan Respublikasında mərkəzləşdirilmiş nizami ordunun yaranmasına təkan oldu. Ulu Öndər Heydər Əliyev güclü və intizamlı ordunun yaradılmasının, həm də yüksək ixtisaslı milli zabit kadrların mövcudluğundan asılı olduğunu nəzərə alaraq, Silahlı Qüvvələrin Hərbi Akademiyasını (Hərbi İdarəetmə İnstitutu) yaratdı, Ali Hərbi Dənizçilik və Ali Hərbi Təyyarəçilik Məktəblərini (Heydər Əliyev adına Hərbi İnstitut) formalaşdırdı. Azərbaycanda ali hərbi məktəblər sisteminin yaradılması, onun tədris prosesinin NATO-ya üzv olan ölkələrin hərbi təhsil sisteminin üstünlüklərinə uyğun olaraq qurulması ilə Azərbaycan Ordusu ciddi, hazırlıqlı, vətənpərvər zabit kadrları ilə təchiz edilir. Bütün bunlar sübut edir ki, bu gün Azərbaycan Respublikasının qüdrətli və nizami orduya malik olması məhz xalqımızın Ümummilli Lideri Heydər Əliyevin gərgin zəhmətinin bəhrəsidir.

Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi, peşəkarlığının artırılması fasiləsiz, yəni, hər gün davam edən bir prosesdir. Məlumdur ki, hər bir ordunun qüdrəti - onun döyüş qabiliyyəti ilə mənəvi gücünün vəhdətində reallaşır. Bu gün Azərbaycan cəmiyyətində, eləcə də Azərbaycan Ordusunda Ulu Öndər Heydər Əliyev tərəfindən hazırlanmış və elmi-nəzəri prinsipləri zamanın sınağından çıxmış mükəmməl hərbi vətənpərvərlik konsepsiyası mövcuddur. İstər sülh, istərsə də müharibə dövründə hərbi qulluqçularda Vətənə, xalqa, dövlətçiliyimizə sədaqət və məhəbbət hisslərinin möhkəmləndirilməsi, onların ümumdövlət mənafeləri ətrafında səfərbər edilməsi bu istiqamətdə aparılan fəaliyyətin əsas məqsədləridir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev azərbaycanlı olmasıyla həmişə qürurlanan, çağdaş Azərbaycan dövlətçiliyinin memarı olan dahi şəxsiyyət Heydər Əliyevin ordu quruculuğu siyasətini bu gün də uğurla davam etdirir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə hər il qoşunların idarəetmə, döyüş hazırlıqlarının təkmilləşdirilməsi məqsədilə Azərbaycan Ordusunda komanda-qərargah hərb oyunları və taktiki təlimlər keçirilir. Bu təlimlərdə müasir döyüş taktikası tətbiq edilir, dünyada ən qabaqcıl təcrübə öyrənilir. Eyni zamanda, bu təlimlər dost və tərəfdaş ölkələrlə də davam etdirilir. Bu təlimlərdə qazanılan təcrübənin məntiqi nəticəsi idi ki, Azərbaycan Ordusu bəşər tarixinin ən müasir müharibəsini aparmaqla Azərbaycan Respublikasının Ermənistanın işğalına məruz qalmış ərazilərini azad edərək respublikamızın ərazi bütövlüyünü təmin etdi. Azərbaycan həm 44 günlük Vətən müharibəsində, həm də qanunsuz hərbi birləşmələrə qarşı antiterror tədbirlərində döyüşmək bacarığını, güclü-müasir ordusunu, ən son hərbi texnika üzrə təlim keçmiş yeni nəsil mütəxəssislərini, mühəndislərini, zabitlərini, elit xüsusi təyinatlı hərbiçilərini nümayiş etdirdi.

Azərbaycan Respublikasında ordu dövlət üçün prioritetdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırmasına dair sərəncamları dövlətin orduya qayğısının geniş ölçülü təzahürüdür. Bu qayğı dönməzdir, daimidir. Azərbaycanda ordu quruculuğu dönməz prosesdir. Bu proses ordunun döyüş qabiliyyətinin, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsinə xidmət edir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan dövlətinin bu istiqamətdə yürütdüyü siyasətin məğzini, məqsədini çox aydın və dürüst şəkildə belə ifadə edib: "Biz bütün sahələrdə orduda gedən proseslərin inkişafına çalışırıq. Son illər ərzində maddi-texniki bazanın möhkəmdirilməsində böyük işlər görülmüşdür, çoxlu texniki avadanlıq, müasir silahlar alınmışdır və beləliklə, Azərbaycan Ordusu xeyli dərəcədə güclənmişdir. Biz bu prosesi davam etdirəcəyik".

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Maraq dünyamız*

# Bəzi maraqlı təbii ərazilər və təbiət hadisələri



Həm vulkanik dağ, həm təbii abidə, həm də insan əli ilə yaradılmış tarixi əsər xüsusiyyətlərinə malik olan Nemrut dağı 1987-ci ildə UNESCO-nun Dünya İrs Siyahısına daxil edilib.

Nemrut dağı (Hierothesion) Cənub-Şərqi Anadolu bölgəsində Adıyaman vilayətinin Kahta rayonu yaxınlığında yerləşir. Dağın hündürlüyü 2150 metrdir. Kommagen (Commagene) Krallığı eramızdan əvvəl I əsrdə dağda heyrətamiz nəhəng heykəllər ucaldıb.

Nemrut dağındakı Kommagen sivilizasiyasının məşhur kralı olan Antiokhos Theosun adına dağda ucaldılan 10 metr hündürlüyündəki nəhəng heykəllər günümüzdə "Nemrut xarabalıqları" adlandırılır və hər il minlərlə turisti burada bir araya gətirir.

"Tanrılar dağı" olaraq da adlandırılan Nemrut dağının zirvəsindəki heykəllərin hündür dağ başında necə ucaldıldığı hələ də sual doğurur. Arxeoloqlar dağda tapılan əhəngdaşı bloklarının orada formalaşdığını təxmin edirlər. Dağın zirvəsində yerləşən bu məqbərədə günəşin necə doğulduğu və necə qüruba getməsi bütün ehtişamı ilə izlənilə bilir.

Bu təsirli mənzərə Yaponiyanın Hokkaydo adasındakı Şimukappu kəndində yerləşən Unkai Terrasa məxsusdur. "Unkai" yapon dilində "buludlar dənizi" deməkdir və bu terras səhər tezdən dağlar arasında əmələ gələn dumanın üstündə unikal mənzərə təqdim edir. Unkai Terras dəniz səviyyəsindən 1088 metr yüksəklikdə yerləşir və Hidaka və Tokaçi dağlarının heyrətamiz mənzərələrini təqdim edir.





Göy qurşağını yer səviyyəsindən yarım halqa kimi görürük. Əslində, təyyarədən və ya yüksək nöqtədən baxsaq, tam dairə formasında görə bilərik.

Bu foto, təxminən 30000 fut (təxminən 9.144 metr) yüksəklikdən çəkilib və göy qurşağının tam dairəvi formasını əks etdirir. Yerdən baxdıqda göy qurşağını yarımdairə kimi görsək də, yüksəkdən baxıldığında onun tam bir halqa formasında olduğu aydın görünür.

Montagnon gölü (Lac Du Montagnon) Fransanın Pireney adalarının mərkəzində yerləşir.

Qar olmadığı təqdirdə gölün ətrafında gəzinti turistlər üçün əlçatandır. Bu yerə qalxmaq təxminən 2,5 saat, enmək isə təxminən 2 saat çəkir.

Gölün üstündə yerləşən Montagnona çata və heyrətamiz mənzərəyə heyran ola bilərsiniz.





Bu möhtəşəm ürək formalı gölü ziyarət etmək üçün ən yaxşı vaxt qar əriyəndən dərhal sonra - aprel-may aylarıdır.

Bu fotodakı geoloji quruluş Glentornan Fold adlanır və İrlandiyada yerləşir. Bu, qatlanmış süxur təbəqələrinin olduqca gözəl və simmetrik bir nümunəsidir.

Şist və qumdaşı layları yer qabığında baş verən tektonik proseslər nəticəsində zamanla əyilib, bükülüb və bu cür "qatlanmış struktura" çevrilib. Bu struktur sinklinal adlanır.

**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar



### Cənubi Koreyada qəzaya uğrayan hərbi təyyarənin 4 heyət üzvünün meyiti tapılıb

Cənubi Koreyanın Phohan şəhəri yaxınlığında qəzaya uğrayan Hərbi Dəniz Qüvvələrinə məxsus "P-3" tipli patrul təyyarəsində olan bütün heyət üzvlərinin - 4 nəfərin meyiti tapılıb.

Bu barədə Cənubi Koreyanın Hərbi Dəniz Qüvvələrinin qərargahı məlumat yayıb. Bildirilib ki, təyyarə mayın 29-u yerli vaxtla saat 13:43-də (Bakı vaxtı ilə 08:43) Phohan şəhərindəki hərbi bazadan təlim uçuşu məqsədilə havaya qalxıb. Təxminən 6 dəqiqə sonra hələlik bilinməyən səbəbdən hava gəmisi dağlıq ərazidə qəzaya uğrayıb.

Hadisə yerində tapılan meyitlərin şəxsiyyətinin müəyyənləşdirilməsi üçün müvafiq ekspertiza aparılacaq.

Qeyd edək ki, Cənubi Koreyanın Hərbi Dəniz Qüvvələrinin inventarında 16 ədəd "P-3" tipli patrul təyyarəsi mövcuddur. Bu, ölkədə bu tip təyyarələrlə bağlı qeydə alınan ilk qəza hadisəsidir.

### Fransa aviasiyasına ağır zərbə: Hindistan döyüş təyyarələrini özü istehsal edəcək



Pakistanla hərbi qarşıdurmadan təxminən üç həftə sonra Hindistan prototip döyüş təyyarəsi hazırladığını açıqlayıb. Bu ölkə son illərdə Fransadan onlarla "Rafale" satın alaraq "Dassault Aviation"un sadiq müştərisi olmuşdu.

Dünyanın ən böyük silah idxalçılarından biri olan Hindistan Çin və Pakistanla gərginlik fonunda ordusunun modernləşdirilməsini əsas prioritet hesab edir. Bu fonda Hindistan döyüş təyyarələrini özü istehsal edəcəyini bildirib. Hindistanın müdafiə naziri 5-ci nəsil Qabaqcıl Döyüş Təyyarəsinin (AMCA) prototipini təsdiqləyib. Ölkə öz döyüş təyyarələri proqramını işə salıb.

Hindistan Fransanın silah ixracının 28 %-ni təşkil edirdi. Hindistanın bu yeni qərarı Fransanın "Dassault Aviation" şirkəti üçün ağır zərbədir. Müdafiə muxtariyyətini artırmaq istəyən Hindistan aprelin sonunadək "Dassault Aviation"un sadiq müştərisi olub, çünki Nyu-Dehli donanması üçün 26 fransız "Rafale" sifariş edib. Hazırda iki dövlət arasında 40 əlavə təyyarə üçün müqavilənin müzakirə olunduğu vaxtda bu xəbər fransız şirkəti üçün çox ağır zərbəyə çevrilib. Danışıqların nəticələrinə ümid azalır.

Hindistan onilliklər ərzində əsas silah tədarükçüsü olan Rusiyadan üz döndərməyə başlayır. Qərb ölkələri ilə müqavilələrə üstünlük verən Hindistanın Pakistanla toqquşma zamanı üç "Rafale" itirməsi onun müdafiə sahəsində Qərbə olan ümidini sındırıb.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

### Azərbaycanın stolüstü tennisçiləri Özbəkistanda bürünc medal qazanıblar



Azərbaycanın stolüstü tennisçiləri Onur Quluzadə və Yağmur Məmmədli Özbəkistanın paytaxtı Daşkənddə keçirilən "WTT Youth Contender" turnirində fəxri kürsüyə qalxıblar.

Yığma üzvləri qarışıq-qoşa mübarizədə bürünc medala layiq görülüblər.



### Azərbaycanı kata üzrə Avropa çempionatında 4 cüdoçu təmsil edəcək

Azərbaycan cüdoçuları Latviyanın paytaxtı Riqada keçiriləcək kata üzrə Avropa çempionatında iştirak edəcəklər.

Turnirdə ölkəmiz 4 idmançı ilə təmsil olunacaq. Yığma üzvləri "Nage-no-kata" və "Katame-no-kata" üzrə fəndlər nümayiş etdirəcəklər.

"Nage-no-kata" üzrə İsmayıl Rzayev (tori - hücum edən idmançı) və Samir İsmayılov (uke - hücum edilən idmançı) qüvvələrini sınayacaqlar.

"Katame-no-kata"da isə Rafiq Nəcəfov (tori) və Seymur Məcidli (uke) medallar uğrunda yarışacaqlar.

Qeyd edək ki, mayın 31-dən iyunun 1-dək təşkil olunacaq çempionatda 22 ölkədən 332 cüdoçu çıxış edəcək.

### Novak Cokoviç karyerasında 100-cü titulu qazanıb



Serbiyalı tennisçi Novak Cokoviç Cenevrədə keçirilən ATP turnirinin qalibi olub və karyerasının 100-cü titulu qazanıb.

Məşhur raketka ustası turnirin finalında dünya 6-cısı polşalı peşəkar tennisçi Hubert Hurkaçı 5:7, 7:6, 7:6 hesabı ilə məğlub edib. Bununla da, Cokoviç amerikalı Cimmi Konnors (109) və isveçrəli Rocer Federerdən (103) sonra 100 və ya daha çox kubok qazanan üçüncü tennisçi olub.

37 yaşlı Novak Cokoviç karyerasında 13 müxtəlif il ərzində rekord sayda - 428 həftə ərzində Peşəkar Tennisçilər Assosiasiyası tərəfindən kişilərin təkbətək yarışlarında dünyada 1-ci yeri tutub, 8 dəfə isə ilin sonunda ilk pillədə qərarlaşıb.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kiçik çavuş İlyasov Ədalət Salah oğluna verilmiş AD № 0036647 nömrəli, çavuş Abbaszadə Şahin Cankişi oğluna verilmiş AD № 0045239 nömrəli və əsgər Bayramov Nicat Cavanşir oğluna verilmiş AD № 0041818 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Musazadə Elgün Qürbət oğluna verilmiş MV № 149462 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Şəlalə DÜNYAMALIYEVA

Lisenziya № 361
Sifariş № 246
Nüsxə 3630